# Ağstafa: Təhsildə əldə edilmiş uğurlar

*Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq onun əziz xatirəsini yad etdilər. Ağstafa Rayon İcra Hakimiyyətinin geniş akt zalında keçirilən ənənəvi sentyabr konfransını giriş sözü ilə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq rayonda gedən ümumi inkişafdan və ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğıdan danışdı. O, tələbə adını qazanmış gəncləri təbrik edərək onlara gələcək həyatlarında uğurlar arzu etdi. Sonra söz Ağstafa Rayon Təhsil Şöbəsinin müdiri Leyla İsayevaya verildi.*



L.İsayeva Ağstafa rayon təhsil işçiləri adından iştirakçıları salamlayaraq qeyd etdi ki, 2015-2016-cı tədris ilində təhsil şöbəsinin nəzdində 33 tam orta, 2 ümumi orta, 3 ibtidai ümumtəhsil məktəbi, 1 texniki və humanitar təmayüllü lisey fəaliyyət göstərmişdir. 10606 şagirdin təlim-tərbiyəsi ilə 1568 nəfər müəllim məşğul olmuşdur. Təhsilin infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində ciddi işlər görülmüşdür. 2015-2016-cı tədris ilində Köhnəqışlaq kəndində 100 yerlik müasir tələblərə cavab verən tam orta məktəb tikilmiş, müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Muğanlı, Pirili, Poylu və Köçəsgər kənd 2 saylı tam orta məktəblərində cari təmir işləri aparılmışdır. L.İsayeva qeyd etdi ki, 2016-cı ildə məzunlardan 361 nəfəri ali məktəblərə qəbul üçün sənəd təqdim etmişlər ki, bu da məzunların 48.7 faizi deməkdir. Sənəd verənlərin 236 nəfəri artıq tələbə adını qazanmışdır. Qəbul olanlardan 14 nəfəri 600-dən, 34 nəfəri 500-dən çox bal yığmışdır. Texniki-humanitar təmayüllü lisey, şəhər 1 saylı tam orta məktəblərində məzunların 50 faizindən çoxu, Qaçaq Kərəm, Böyük Kəsik, Tatlı, Köçəsgər 2 saylı, Vurğun, Köhnəqışlaq Poylu qəsəbə, şəhər 2 saylı, Dağkəsəmən kənd 1 saylı tam orta məktəbinin məzunlarının isə 35-50 faizi ali məktəblərə daxil olmuşlar.

Yeni tədris ilinə hazırlıqla əlaqədar ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklə təminatı məsələlərinə ciddi fikir verilmiş, rayonun ümumtəhsil məktəblərinə bölgü əsasında paylanmışdır. 2016-2017-ci tədris ili üçün Azərbaycan və rus bölmələri üzrə 132 adda 41735 ədəd dərslik, 41 adda 2170 ədəd müəllim vəsaiti gətirilərək məktəblərə paylanmışdır. Əminliklə qeyd etmək olar ki, şagirdlərin dərsliklərlə bağlı heç bir problemi olmayacaqdır.

L.İsayeva qeyd etdi ki, ümumxalq səsverməsi - referenduma sayılı günlər qalmışdır. Təhsil işçiləri bu siyasi kampaniyada yüksək mütəşəkkillik və fəallıq nümayiş etdirəcəklər. Növbəti tədris ilinə Ağstafa təhsil işçiləri yüksək nəticələr əldə etmək üçün daha əzmlə çalışmağı qarşılarına məqsəd qoymuşlar.

Sonra Təhsil Nazirliyinin məsul işçisi Əhliyyət Adıgözəlov çıxış edərək ölkəmizdə təhsil sahəsində əldə olunmuş nailiyyətlər barədə çıxış etdi və konfrans iştirakçılarını maraqlandıran suallara cavab verdi. Həmçinin, məruzə ətrafında Uşaq Gənclər İdman Məktəbinin direktoru Abbas Fərzəliyev, Ağstafa şəhər 1 saylı tam orta məktəbin direktoru Bahar İsmayılova, Muğanlı kənd tam orta məktəbin direktoru Fəxrəddin Səfiyev, Köhnəqışlaq kənd tam orta məktəbin direktor müavini Vüsalə Qarayeva və Dağkəsəmən kənd 1 saylı tam orta məktəbin qızıl medal almış məzunu İmran Məmmədov çıxış etdilər.

Yüksək balla ali məktəblərə daxil olmuş məzunlar rayon icra hakimiyyəti tərəfindən qiymətli hədiyyələr və fəxri fərmanlarla təltif olundular.

Konfransın sonunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Vəli VƏLİYEV,**
**"Respublika".**